# Əli Rzanın yovşan ətri

Şair-publisist Əli Rza Xələflinin bu il oktyabr ayının 1-də 70 yaşı tamam olacaq. O bu ömrün 50 ilini yazıb-yaradıb. Bəlkə də, məmləkətimizdə onun qədər geniş fəaliyyəti olan ikinci bir yazar tapmaq çətindir. İndi o hesabat verir. Təkcə paytaxtda deyil, bölgələrdə də Əli Rza müəllimin fəaliyyət və yaradıcılığına qiymət verilir. Mən onun əsərləri haqqında düşüncələrimi vaxtı ilə bölüşmüşəm. Toplasam bir yerə kitab alınar...

"Kredo" qəzetinin 17 may nömrəsi indi qarşımdadır. "Gəyəndən əsən yellər" adlı xatirə-məsnəvisi oxuculara təqdim olunub...

Oxuyuram. Şair yaddaşını vərəqləyir. Gəyən haqqında tarixi bayatıları, böyük el şairi Qurbanini və s.xatırladır.

*Böyük Çöldən gələn yol tarixdən keçib gedir,*
*Gəyəndə nəfəs dərib, Arazdan içib gedir.*

Gəyən, mənim araşdırmama görə, göyərmiş və geniş yer, ucsuz-bucaqsız ərazi deməkdir.Bu yerlər malheyvanın, qoyun-quzunun otlaq yeri olub... Əlbəttə, sülh, əmin-amanlıq zamanlarında. Çünki Gəyən Xudafərin üstü ipək yolu ilə üzvi şəkildə bağlıdır. Elə bu səbəbdən tarixi savaşlar meydanı da olub.

Gəyən şairin xəyalında, ruhunda yaddaşın ocağı, böyük Türkün Tanrı dağına açılan qucağı kimi xarakterizə olunur.

*Boz yovşan dənizində dalğalı xəyalların*
*Bir gün toyu qurular Gəyəndə vüsalların.*

Şair Gəyəni hikmət dənizi adlandırır. O bu yerlərin irili-xırdalı toponimik vahidlərini sevə-sevə tərənnüm edir: Araz, Diri dağı, Böyük Çöl, İncə, Güzgə dağı, Aşağı Xələfli, Qız qalası, Soltanlı kəhrizi, Topcaq düzü, Köz dağı, Qaraman yolu, Göyərçin Veysəlli, Zallı bulağı, Şahvəlli, Keyxalı obası, Cingil bulaq...

Bölgənin insanlarınının xarakterik xüsusiyyətlərini göstətir: Əkbər Vəliş oğlu, Firəngiz nənə, Vəliş oğlu Həmzə, Əhməd oğlu Hüseyn, Məhəmmədəli, Abbas, Mirim Əli, Şərif oğlu Hüseyn, Məhəmməd müəllim, Sofu Mustafa, Saleh, Çıqqılı Əli, Çoban Abdulla, Abıgül, Çoban Əhməd, Etibar Əliaslan, Ramazan, Mürvət, Bəxtiyar doxtur və b.

Şair bu adları yada salmaqla keçmişə qayıdır. Şagirdi olmuş, indi Şəhidlik zirvəsini fəth etmiş Hafizin adını minnətdarlıq hissi ilə çəkir.

*Şəhid düşən Hafizin adını öndə gördüm,*
*Əbədiyyət yolunda gün doğan yöndə gördüm.*







Ə.Xələfli bu əsərində döyüşlərin coğrafiyasını göstərir; yer-yurd adlarını məkan müstəvisinə gətirir. Gözlərimizin önündə əzəmətli Gəyən canlanır. Və Gəyəndən keçməklə Birinci Qarabağ savaşının, eləcə də İkinci Qarabağ savaşının tarixi dönəmlərini yer-yurd adları ilə işarələyir. Poetik ifadə tərzi müəllif düşüncəsini mükəmməlliklə ehtiva edir və biz özümüzü qanlı savaşların getdiyi məkanlarda hiss edirik:

*Qanlı savaşlar oldu Hərəküldə, "Ağ yol"da,*
*Zamzur üstü Şayaqda, qan çilənmiş Dağ yolda.*

Mehdiqulunun külfətinin ermənilər tərəfindən əsir götürülməsi səhnəsi ürəkləri dağlayır. Bu hadisə zaman-zaman yaddaşlarda yaşayacaq, erməni vandallarına nifrət hissi gələcək nəsilləri ayıq-sayıq olmağa çağıracaq. Əsərdə ürəkləri titrədən belə səhnələr çoxdur.

Xələflinin yeni kitabı nəşrə hazırlanıb. "Gəyən əfsanəsi" adı ilə oxuculara təqdim olunan kitabda verilən digər əsərlər də diqqətimi cəlb etdi. "Gəl gedək yurda sarı" əsəri də həm məzmununa, həm də formasına görə yenidir, cəlbedicidir. Bu əsərdə elə bayatılar var ki, klassik bayatı örnəklərindən seçilmir. Bayatıların fəlsəfi məzmunu ümumiləşdirmə gücü müəllifin təfəkkür genişliyindən xəbər verir.

"Ağır xan və Şəkər xatun" əfsanə-poeması mövzusunu tarixdən alıb, amma günümüzün ağrılarını da özündə ehtiva edir.

*Ağur xan and içdi torpağa, yurda,*
*Qənimlər üstündə ulayan qurda.*
*Səni varlığımda daşıyacağam,*
*Sənin eşqin ilə yaşayacağam.*

*Çinarın dibindən bir bulaq çıxdı,*
*Dumduru göz yaşı duruldu axdı.*
*O zamandan nakam eşqin sorağı,*
*Axıb gedir Şəkər xatun bulağı.*

Xələfli-Tatar arasında bildiyimə görə məşhur Şəkər Xatun bulağı var. Bulağın üstündəki çinar tarixlərin şahididir. Həmin bulaq da, çinar da əzəmətli Ağrıxan dağının ətəyindədir. Əsər bütün ruhu ilə oxucunu yurda çağırır.

Mən "Gəyəndən əsən yellər" əsərini və digər əsərlərini də həyəcanla oxudum.

Bəli, Əli Rzanın bu əsərinin məziyyətlərindən çox danışmaq olar. "Gəyəndən əsən yellər" əsərinin hər misrasından yovşan ətri gəlir. Bu qoxu ürəklərə məlhəmdir, o yerlərə, o insanlara qovuşmağın mühüm bir vasitəsidir.

*Can gələcək Gəyənə günəş yenə doğacaq,*
*Həqiqətin işığı zülmətləri boğacaq.*

Mən müəllifin bu qənaəti ilə tam razıyam. Daha gözəl sabahların qapısı ağzındayıq. Müəllif öz yubileyinə maraqlı kitabı ilə gəlib.

Yubileyin mübarək, əziz Əli Rza müəllim! Sənin üçün Qəzənfər Kazım, Qurban Bayram, İslam Qəribli, Aslan Salmansoy çox darıxıblar. Və bir də mən.

Yaşa, yarat, elata bağlı düşüncələrin bizə qol-qanad verir, ulu torpağa səsləyir...

***İsmayıl KAZIMOV,***
***filologiya elmləri doktoru,***
***professor.***

Kredo .- 2023.- 26 iyul.- S.5.